# Samux

*Son vaxtlar Samuxu tanımaq olmur. Əvvəllər adı daima inkişafdan geri qalan bölgələr sırasında qərar tutan, gözdən-könüldən uzaqda çözülməz problemlərilə üz-üzə qalan rayon birdən-birə dəyişməyə, yeni libasa bürünməyə başladı. Aparılan rəngarəng quruculuq və abadlıq işləri bir-birini əvəz etdi...*

*İllər keçəcək, amma Vilyam müəllimin imza atdığı uğurlar bununla yekunlaşmayacaq. Onun gözəl əməlləri ilə samuxluların ürəklərində əbədi heykəlini ucaltması da bu inamdan doğur. Çünki Samux öz tarixi ərzində məhz Vilyam Hacıyevin rəhbərliyi dövründə bu qədər dəyişib, inkişaf edib, gözəlləşib. Heydər Əliyev muzeyi istifadəyə verilib. Heydər parkında tikinti - quraşdırma işləri başa çatıb. Qəsəbə və kəndlərdə park və xiyabanlar salınıb. Musiqi məktəbləri , Kolayır, Sərkar, Ziyalı kənd və rayon mədəniyyət evləri təmir edilib...*

*Bu, son bir il ərzində görülən işlərin yalnız müəyyən qismidir...*

*Məsəl var, deyərlər: "Kimin əvvəli, kimin də sonu". Samuxun ən gözəl vaxtları Vilyam müəllimin dövrünə düşəcəkmiş!*

*Qurub-yaratmaq üçün irəlidə hələ nə qədər məhsuldar aylar, mənalı illər durur...*

*Sürətindən qalma, Samux!*

*Yeni-yeni uğurlar, Vilyam müəllim!!!*








